# Azərbaycan öz ərazisində ikinci Ermənistan dövlətinin yaradılmasına heç vaxt icazə verməyəcək



***Azərbaycanın Silahlı Qüvvələri sentyabrın 27-dən başlayaraq əks-hücum əməliyyatları nəticəsində Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordusunu darmadağın edir. Düşmənin hər gün çox sayda komanda məntəqəsi, tankı, artilleriya qurğusu, raket sistemi, canlı qüvvəsi məhv edilir, xeyli hərbi texnikası, silah-sursatı ələ keçirilir. Azərbaycan Ordusunun əks-hücum əməliyyatları ilə işğal altında qalan torpaqlarımızın bir hissəsi azad edilməklə artıq işğala əsaslanan status-kvo dəyişib. Beləliklə, Dağlıq Qarabağ münaqişəsinin hərb yolu ilə həll oluna biləcəyi mümkünlüyü sübuta yetirilib. Eyni zamanda, düşmənə Dağlıq Qarabağ probleminin xalqımız üçün çox həssas məsələ olduğu və torpağımızın bir qarışının belə işğalçıda qalmayacağı məntiqi də anladılıb.***

Təəssüf ki, sözügedən problemin həllinin uzanmasında dünya birliyi, beynəlxalq təşkilatlar tərəfindən məsələyə ikili standartlarla yanaşılması, münaqişənin ədalətli həllinə ciddi maraq göstərilməməsi də az rol oynamayıb. Ən əsası isə münaqişənin həlli istiqamətində ATƏT-in Minsk qrupu öz vəzifəsinin öhdəsindən gəlməyib.

Ötən dövr ərzində bəzi həmsədrlərin ermənilərin tərəfini saxlamaları, işğal faktına göz yummaları açıq-aydın nəzərə çarpırdı. Bununla da işğalçının cəzasız qalması bölgənin təhlükəsizliyinə böyük təhlükə yaradırdı. Nəticəsiz danışıqlar, vasitəçilərin əhəmiyyətsiz, əksər hallarda isə ikili standartlara söykənən bəyanatları prosesi, necə deyərlər, ölü nöqtədən tərpətməyə imkan vermirdi. Yaranmış vəziyyət isə həm vasitəçiləri, həm də işğalçını qane edirdi. Təbii ki, Azərbaycan da öz milli məsələsi olan Dağlıq Qarabağ münaqişəsi ətrafında vəziyyətin sona qədər bu cür davam etməsi ilə razılaşmırdı.

Şübhəsiz ki, belə şəraitdə Azərbaycanın yeganə yolu qəti mövqe nümayiş etdirərək, münaqişənin hərbi vasitə ilə həllinə üstünlük verməsi idi. Ona görə də ordumuzun əks-hücum əməliyyatları da məhz bu məntiqə əsaslandı və vəziyyətin bu yolla dəyişilməsi mümkünlüyünü sübuta yetirdi.

Hazırda Azərbaycan hərbi və siyasi şərtləri diktə edir. Elə bunun nəticəsidir ki, Azərbaycan hücum diplomatiyasına əsaslanan gedişlərlə regionun geosiyasi mənzərəsini sürətlə dəyişməyə başlayır.

Prezident İlham Əliyev müharibə başlayandan indiyədək müxtəlif televiziyalara müsahibələrində də bütün bunlar barədə ətraflı bəhs edib. Dövlətimizin başçısı "France 24" kanalının müxbiri ilə söhbətində işğalçı dövlətə mesajlarını da verib. Bildirib ki, Ermənistan atəşkəsi pozandan sonra Azərbaycanın düşmənin hərbi hədəflərinə zərbələr endirməsi ölkəmizin özünü müdafiə etməsi ilə bağlı olub. Çünki atəşkəsə birtərəfli qaydada nail olmaq mümkün deyil. Əks halda, Ermənistan üstünlüyə malik olacaq və öz məqsədinə çatacaq. Əslində, işğalçı tərəf elə buna cəhd göstərir. Ermənistan ordusu bu gün azad edilən əraziləri geri almağa çalışır. Xüsusilə, Hadrut şəhərini geri götürmək məqsədilə döyüşlər aparır. Lakin işğalçı uğursuzluqla qarşılaşır: "Mənim onlara məsləhətim belədir və mən artıq Ermənistan hökumətinə və həmçinin Ermənistan xalqına açıq şəkildə mesajımı ünvanlamışam ki, onlar azad edilmiş əraziləri geri götürmək cəhdlərini dayandırmalıdırlar. Bu, yalnız yeni qurbanlara səbəb olacaq və qan tökülməsinə gətirib çıxaracaqdır".

Prezident İlham Əliyev xarici televiziyalara müsahibələrində Dağlıq Qarabağ uğrunda müharibənin haqq savaşı olması haqqında da ətraflı danışıb. Məsələn, "CNN-Türk" kanalına müsahibəsində hazırda ordumuzun Azərbaycanın öz ərazi bütövlüyünün bərpası istiqamətində əks-həmlələri nəzərdə tutulan plan əsasında apardığını, artıq bir sıra ərazilərimizin işğaldan azad edildiyini vurğulayıb. Bildirib ki, bu, bir daha onu göstərir ki, xalqımız işğalla heç vaxt barışmayacaq: "Biz bunu dəfələrlə demişik: Qarabağ bizim tarixi, əzəli torpağımızdır! Təəssüf ki, uzun müddət ərzində aparılan müzakirələr bir nəticəyə gətirib çıxarmadı. Belə olan halda, əlbəttə ki, Azərbaycan təkbaşına öz ərazi bütövlüyünü bərpa etməli idi və bunu edir".

Yeri gəlmişkən, dövlətimizin başçısının oktyabrın 21-də Yaponiyanın "Nikkei" qəzetinə verdiyi müsahibədə diqqətçəkən bir məqam barədə də bəhs etmək istərdim. Belə ki, jurnalistin "Dağlıq Qarabağı geri qaytarandan sonra Siz Madrid prinsiplərində qeyd olunduğu kimi, onların öz müqəddəratını təyinetmə hüququna hörmət edəcəksinizmi və referenduma razılıq verəcəksinizmi?" – sualına cavabında dövlətimizin başçısı deyib: "Xeyr, əlbəttə ki, xeyr. Dağlıq Qarabağda heç bir referendum olmayacaq. Biz bununla heç vaxt razılaşmayacağıq. Biz danışıqlar zamanı buna razılıq vermədik və indi ərazinin böyük bir hissəsini geri aldığımız bir vaxtda bundan söhbət gedə bilməz. Öz müqəddəratını təyinetməyə gəldikdə, ermənilər artıq öz müqəddəratlarını təyin ediblər. Onların müstəqil Ermənistan dövləti var. Təsəvvür edin, əgər ermənilər yaşadıqları hər yerdə öz müqəddəratlarını təyin etsələr nə baş verər, dünyada neçə kiçik Ermənistan olar. Bu, əks təsir verən yanaşmadır. Öz müqəddəratını təyinetmə beynəlxalq hüququn mühüm amilidir".

Azərbaycan Prezidenti sözünə əlavə edərək, vurğulayıb ki, öz müqəddəratını təyinetmənin, icmaların müxtəlif növləri var. Bu baxımdan, məsələn, mədəni muxtariyyət ola bilər. Biz Avropanın inkişaf etmiş ölkələrində bu nümunələri görürük ki, insanların öz bələdiyyələrində, öz icmalarında müəyyən hüquqları var. Azərbaycanın istənilən yerində olduğu kimi, əlbəttə, Azərbaycanda yaşayan ermənilərin də bu formada təmasları ola bilər. Lakin biz heç vaxt Azərbaycan ərazisində ikinci Ermənistan dövlətinin yaradılmasına icazə verməyəcəyik. Bundan söhbət gedə bilməz. Bir sözlə, referendum olmayacaq, heç vaxt.

***Məhərrəm SƏFƏRLİ,***
***Beynəlxalq Jurnalistlər Federasiyasının üzvü***

Xalq qəzeti 2020.-24 oktyabr.- S.3.